**Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41 (Cild I); 2024, № 2, maddə 155, № 6 (I kitab), maddə 654, № 8, maddə 948) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.1. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (bundan sonra – Nazirlik) rəqəmsal inkişaf, elektron hökumət, telekommunikasiya, poçt, kosmik fəaliyyət, yüksək texnologiyalar (rəqəmsal texnologiyalar, informasiya texnologiyaları, mikroelektronika, süni intellekt, nano, bio və digər innovativ elmtutumlu texnologiyalar), fərdi məlumatlar və nəqliyyat (avtomobil, dəmiryol, dəniz və hava nəqliyyatı, eləcə də naviqasiya) sahələrində (bundan sonra – müvafiq sahə) dövlət siyasətini və tənzimləməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.";

1.2. 2.0.4-cü yarımbənddə "üçün" sözündən sonra "prioritetləri müəyyən edir və investisiyaların təşviqi üzrə digər" sözləri əlavə edilsin;

1.3. aşağıdakı məzmunda 2.0.5-1-ci və 2.0.8-1-ci yarımbəndlər əlavə edilsin:

"2.0.5-1. rəqəmsal texnologiyaların tətbiqi üzrə prioritetlərin müəyyən edilməsi, rəqəmsallaşdırılmanın və innovasiyaların tətbiqinin genişləndirilməsi, mövcud informasiya infrastrukturunun davamlı texnoloji inkişafına nail olunması, eləcə də dövlət xidmətlərinin və idarəetmə proseslərinin rəqəmsal mühitdə təkmilləşdirilməsi ilə bağlı tədbirlər görür;";

"2.0.8-1. mülki aviasiya hadisələri ilə əlaqədar axtarış və xilasetmə işlərinin təşkilində və əlaqələndirilməsində iştirak edir;";

1.4. 2.0.13-cü yarımbənddə "yüksək texnologiyalar sektorunun" sözləri "müvafiq sahənin" sözləri ilə əvəz edilsin;

1.5. aşağıdakı məzmunda 2.0.15-1-ci yarımbənd əlavə edilsin:

"2.0.15-1. aidiyyəti dövlət qurumları ilə birlikdə internet idarəçiliyinin həyata keçirilməsi, habelə televiziya və radio yayımının, efir məkanının informasiya təhlükəsizliyinin və radiospektr idarəçiliyinin təmin edilməsi, eləcə də qlobal kiberhücumların qarşısının alınması ilə bağlı tədbirlər görür;";

1.6. 2.0.16-cı yarımbəndə "şəbəkələrinin" sözündən sonra ", o cümlədən həmin şəbəkələrin kosmik seqmentinin" sözləri əlavə edilsin;

1.7. 3.0.3-cü yarımbənddə "bu sahədə" sözləri "o cümlədən" sözləri ilə əvəz edilsin;

1.8. aşağıdakı məzmunda 3.0.3-1-ci və 3.0.3-2-ci yarımbəndlər əlavə edilsin:

"3.0.3-1. dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na keçidi üçün tədbirlər görmək;

3.0.3-2. rəqəmsal və digər informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə dövlət qurumları tərəfindən göstərilən xidmətlər barədə istifadəçilərin məlumatlılıq səviyyəsini artırmaq, həmin xidmətlər üzrə problemlər, eləcə də xidmətlərdən istifadə məmnunluğu ilə bağlı istifadəçilərdən alınan rəylər əsasında proseslərin davamlı təkmilləşdirilməsi üçün tədbirlər görmək;";

1.9. 3.0.11-ci yarımbəndə "tikintisi" sözündən sonra "və satın alınması" sözləri əlavə edilsin;

1.10. 3.0.14-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.0.14. Nazirliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq lisenziyaların və ya icazələrin, onların dublikatlarının və əlavələrinin verilməsi, yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvi ilə bağlı rəy, həmçinin müvafiq fəaliyyət növlərinə icazə vermək və icazə şərtlərinə riayət olunmasına nəzarət etmək;";

1.11. aşağıdakı məzmunda 3.0.15-2 – 3.0.15-4-cü və 3.0.16-5-ci yarımbəndlər əlavə edilsin:

"3.0.15-2. yol işlərinin xarakterindən və davametmə müddətindən asılı olaraq onların başlanmasına tabeliyindəki qurum vasitəsilə razılıq vermək;

3.0.15-3. Azərbaycan Respublikasının nəqliyyat donanması gəmilərində heyət üzvlərinin sertifikatlaşdırılmasına dair qaydaları müəyyən etmək;

3.0.15-4. Azərbaycan Respublikasının Dövlət Bayrağı altında üzən gəmilərin (kiçikhəcmli gəmilər istisna olmaqla), dəmiryol nəqliyyatı vasitələrinin, mülki aviasiya hava gəmilərinin və kosmik obyektlərin rəsmi reyestrlərini tabeliyindəki qurumlar vasitəsilə aparmaq;";

"3.0.16-5. şəhərdaxili hərəkət (mobillik) planına rəy bildirmək;";

1.12. 3.0.19-cu yarımbənddə "aviadaşımalar" sözü "hava, su, avtomobil və dəmiryol

daşımaları” sözləri ilə əvəz edilsin;
1.13. 3.0.33-cü yarımbəndə “mühitinin” sözündən əvvəl “ətraf” sözü əlavə edilsin;
1.14. aşağıdakı məzmunda 3.0.36-1-ci və 3.0.36-2-ci yarımbəndlər əlavə edilsin:
“3.0.36-1. fərdi məlumatların informasiya ehtiyatlarının və sistemlərinin, habelə onların layihə sənədlərinin dövlət ekspertizasını tabeliyindəki qurum vasitəsilə təşkil etmək, fərdi məlumatların mühafizəsi sahəsində mülkiyyətçi, operator və subyektlərin maariflənməsini təşkil etmək;
3.0.36-2. fərdi məlumatların mülkiyyətçi və operatorlarının sifarişlərinə əsasən fərdi məlumatların toplanılmasının, işlənilməsinin və mühafizəsinin təşkilati və texniki cəhətdən normativ hüquqi aktların tələblərinə uyğun aparılmasının auditini tabeliyindəki qurum vasitəsilə həyata keçirmək;”;
1.15. 3.0.42-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:
“3.0.42. beynəlxalq və regional təşkilatlarda müvafiq sahədə ölkənin maraqlarının qorunmasını təmin etmək;”;
1.16. 3.0.43-cü yarımbəndə “Reqlamentinə,” sözündən sonra “Beynəlxalq Radiorabitə Reqlamentinə,” sözləri əlavə edilsin;
1.17. aşağıdakı məzmunda 3.0.48-1-ci yarımbənd əlavə edilsin:
“3.0.48-1. radiospektr idarəçiliyinin həyata keçirilməsi ilə bağlı bilavasitə və tabeliyindəki qurum vasitəsilə tədbirlər görmək;”;
1.18. 3.0.50-ci yarımbənddə “rabitə və yüksək texnologiyalar sahəsində fəaliyyət göstərən operatorların, provayderlərin və digər hüquqi şəxslərin,” sözləri “müvafiq sahədə fəaliyyət göstərən hüquqi və” sözləri ilə əvəz edilsin;
1.19. aşağıdakı məzmunda 3.0.57-1-ci yarımbənd əlavə edilsin:
“3.0.57-1. genişzolaqlı internetə çıxış imkanının və xidmətlərin keyfiyyətinin artırılması məqsədilə mövcud infrastrukturun texnoloji inkişafını təmin etmək;”;
1.20. 3.0.59-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:
“3.0.59. Azərbaycan Respublikasının ərazisində yerüstü və peyk rəqəmsal televiziya yayımını aidiyyəti qurumlarla birlikdə inkişaf etdirmək, rəqəmsal radio yayımını təşkil etmək və ən yeni yayım texnologiyalarını təşviq etmək;”;
1.21. 3.0.60-cı yarımbənddə “bu” sözü “həmin” sözü ilə əvəz edilsin;
1.22. 3.0.63-cü yarımbənddə “yüksək texnologiyalar” sözləri “müvafiq sahə” sözləri ilə əvəz edilsin;
1.23. 3.0.65-ci yarımbəndə “sahələrində” sözündən sonra “rəqəmsal inkişafın təmini, o cümlədən” sözləri əlavə edilsin;
1.24. 3.0.66-cı yarımbəndə “(o cümlədən startapların)” sözlərindən sonra “təşviq edilməsini, onların qrant, güzəştli kredit və nizamnamə kapitalına sərmayə (o cümlədən, vençur maliyyələşməsi) vasitəsilə” sözləri əlavə edilsin;
1.25. aşağıdakı məzmunda 3.0.67-1 – 3.0.67-3-cü yarımbəndlər əlavə edilsin:
“3.0.67-1. dövlət qurumlarına məxsus olan, eləcə də kritik informasiya infrastrukturlarının təhlükəsizliyi istisna olmaqla, ölkə üzrə digər informasiya infrastrukturlarının kibertəhlükəsizliyinin pozulmasına yönəldilmiş hərəkətlərin aşkarlanması və qarşısının alınması üçün aidiyyəti qurumlarla birlikdə tədbirlər görmək;
3.0.67-2. ölkədə preventiv tədbirlərin həyata keçirilməsini təmin edən milli kompüter insidentlərinə qarşı mübarizə mərkəzinin fəaliyyətini təşkil etmək, milli və sahəvi kompüter insidentlərinə qarşı mübarizə mərkəzləri arasında vahid məlumatlandırma mexanizmlərini müəyyən etmək;
3.0.67-3. aidiyyəti qurumlardan, digər ölkələrin analoji qurumlarından, beynəlxalq təşkilatlardan, habelə fiziki və hüquqi şəxslərdən baş vermiş elektron təhlükələr və kiberinsidentlər barədə məlumatlar əldə etmək, həmçinin məlumatların tamlığını (dəqiq, səlis, aktual və bütöv olması) və əlçatanlığını (müraciətin, əldə etmənin, nəzarətdə saxlamanın mümkün olması) təmin etmək üçün tədbirlər görmək;”;
1.26. 3.0.68-ci və 3.0.69-cu yarımbəndlər aşağıdakı redaksiyada verilsin:
“3.0.68. aidiyyəti dövlət qurumları ilə birlikdə ölkənin efir məkanının informasiya təhlükəsizliyinin təmin edilməsi ilə bağlı tədbirlər görmək;
3.0.69. “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq fərdi məlumatların informasiya sistemlərinin dövlət qeydiyyatını və dövlət reyestrini aparmaq, eləcə də dövlət reyestrinə daxil edilmiş informasiya sistemlərində fərdi məlumatların toplanması, işlənməsi və mühafizəsinin həmin Qanunun tələblərinə, habelə məlumatların və onların işlənmə üsullarının informasiya sisteminin bəyan olunmuş məqsədlərinə uyğunluğunu aidiyyəti dövlət qurumları ilə birlikdə yoxlamaq;”;
1.27. 3.0.72-ci yarımbəndə “şəbəkələrinin” sözündən sonra “, o cümlədən həmin şəbəkələrin kosmik seqmentinin” sözləri əlavə edilsin;
1.28. 3.0.73-cü yarımbənd ləğv edilsin;
1.29. aşağıdakı məzmunda 3.0.75-1 – 3.0.75-8-ci yarımbəndlər əlavə edilsin:
“3.0.75-1. dövlət informasiya ehtiyatının və sisteminin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi qaydalara uyğun olaraq əlaqələndirici qurum funksiyalarını həyata keçirmək;
3.0.75-2. dövlət–vətəndaş (G2C – government to citizen), dövlət-biznes (G2B –

government to business), dövlət–dövlət (G2G – government to government), biznes–dövlət (B2G – business to government), biznes–istehlakçı (B2C – business to consumer) və biznes–biznes (B2B – business to business) xidmətlərinin rəqəmsallaşdırılması və mümkün olduğu halda proaktiv təşkili, habelə təkmilləşdirilməsi ilə bağlı tədbirlər görmək;

3.0.75-3. dəniz üzgüçülüyünün təhlükəsizliyi, dənizdə insan həyatının və sağlamlığının qorunması, dəniz ətraf mühitinin mühafizəsi ilə bağlı tabeliyindəki qurum vasitəsilə tədbirlər görmək;

3.0.75-4. dəmiryol nəqliyyatı ilə daşıma proseslərinin fasiləsizliyinin, təhlükəsizliyinin və keyfiyyətliliyinin təmin edilməsinə dair təkliflər vermək;

3.0.75-5. dalan dəmir yollarında xidmət qaydalarını müəyyənləşdirmək, həmin qaydalara və hərəkətin təhlükəsizliyi tələblərinə riayət edilməsinə, həmçinin dalan dəmir yoluna malik qurumlarda dəmiryol texniki istismar və texniki təhlükəsizlik qaydaları haqqında biliklərin yoxlanılmasına və sınaqdan keçirilməsinə nəzarət etmək;

3.0.75-6. lokomotivlərin, yük, sərnişin və baqaj vaqonlarının, motor-vaqonlu hərəkət vasitələrinin, habelə daşımaların yerinə yetirilməsini və dəmiryol nəqliyyatının fəaliyyətini təmin edən digər hərəkət tərkiblərinin və konteynerlərin istehsalına, istismarına və saxlanılmasına dair tələbləri müəyyən etmək;

3.0.75-7. dəmiryol nəqliyyatı infrastrukturunun ayrı-ayrı obyektlərinin, vahid istehsalat infrastrukturu şəbəkəsinin və qatarların istismarına, yanğın təhlükəsizliyinin və mühafizəsinin təmin edilməsinə, eləcə də ümumi istifadədə olan dəmir yollarında yük işinin, daşımaların və qatarların hərəkətinin təşkilinə nəzarət etmək;

3.0.75-8. dəmiryol nəqliyyatı sahəsində rabitə, informasiya, marketinq, servis və digər xidmətlər göstərilməsi ilə bağlı tələbləri təsdiq etmək, həmçinin ümumi istifadədə olan dəmiryol infrastrukturundan istifadə olunmaqla sərnişin və yük daşımalarının həyata keçirilməsinə nəzarət etmək;”;

1.30. 3.0.78-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.0.78. dövlət informasiya ehtiyatlarının və sistemlərinin, habelə elektron xidmətlərin qeydiyyatının həyata keçirilməsi məqsədilə vahid reyestrin təşkilini və aparılmasını təmin etmək;”;

1.31. 3.0.79-cu yarımbənddən “aidiyyəti dövlət qurumları ilə birlikdə” sözləri çıxarılsın;

1.32. 3.0.87-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

“3.0.87. rəqəmsal inkişafla və elektron hökumətlə bağlı görülən işlərə və həyata keçirilən tədbirlərə (o cümlədən dövlət informasiya sistemlərinin və ehtiyatlarının formalaşdırılması və təkmilləşdirilməsi, eləcə də elektron xidmətlərin təşkili və təkmilləşdirilməsi) dair ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək;”;

1.33. 3.0.91-ci yarımbəndə “qaldırılması” sözündən sonra “və rəqəmsal inkişaf” sözləri əlavə edilsin;

1.34. aşağıdakı məzmunda 4.0.8-1-ci yarımbənd əlavə edilsin:

“4.0.8-1. dəmiryol nəqliyyatı infrastrukturunun, o cümlədən dəmiryol xətlərinin və inzibati binalarının layihələndirilməsi, tikintisi, yenidən qurulması, saxlanılması, maddi-texniki bazasının inkişaf etdirilməsi, yol təsərrüfatının cari saxlanılması üçün tədbirlər görmək;”;

1.35. 4.0.15-ci yarımbənddən “yüksək texnologiyalar üzrə” sözləri çıxarılsın;

1.36. 4.0.17-ci yarımbənddə “telekommunikasiya və yüksək texnologiya sahələrində” sözləri “müvafiq sahədə” sözləri ilə əvəz edilsin və həmin yarımbənddən “dövri mətbu nəşr təsis etmək,” sözləri çıxarılsın;

1.37. 4.0.17-3-cü yarımbənddə “qurumlarında elektron xidmətlərin təşkilində istifadə olunacaq” sözləri “qurumlarının” sözü ilə, “yaradılması” sözü “formalaşdırılması” sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 dekabr 2024-cü il